## *Süleyman RƏHİMLİ - 125*

# BÖYÜKLƏRİN YAŞAYAN RUHU

### *Sabir Rüstəmxanlının "Zirvələrdən biri" publisistik azısı üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Hər şey çox istedadlı və məşhur jurnalist-publisist Aydın Canıyevin "Sabir Rüstəmxanlıya təşəkkür" adlı yazısından başladı. Həmin yazıda müəllif çoxlu problemlərə toxunur, müxtəlif məsələlərə münasibət bildirir və məramını ümumi məcraya yönəldir. Onu da deyim ki, yazının əvvəlində mənim də xidmətlərimi yada salır, rəğbətli münasibət bildirir. Əlbəttə, buna görə mən A.Canıyevə öz təşəkkürümü bildirirəm. Əsas odur ki, o, həmin qeydləri ilə oxucuların və mən deyərdim ki, sənət yanğısı olan hər kəsin Sabir Rüstəmxanlının təzəlikcə qələmə aldığı çox dəyərli publisist yazısına diqqəti yönəldir.

S.Rüstəmxanlı böyük ədəbiyyat xadimi olaraq qüdrətli sənətkarlarımızın haqqında xüsusi təəssübkeşliklə silsilə məqalələr yazır. Elə onun son vaxtlar qələmə aldığı çoxlu yazılarının adını çəkmək olar ki, həmin yazılarda ədəbiyyatımızın görkəmli simaları haqqında dəyərli fikirlərini oxucularla bölüşür. Onu da deyim ki, mən S.Rüstəmxanlının publisistik yaradıcılığını, xüsusilə Qarabağda qələbəmizi tərənnüm edən son dövr poetik əsərlərini maraqla oxumuş, izləmişəm. Hətta "Sabir Rüstəmxanlı yolu" adlı kitab da yazdım və uğurla çap olundu. Əlbəttə, sözüm bunda deyil, mən S.Rüstəmxanlının "Zirvələrdən biri" adlı məqaləsini də maraqla oxudum. Müəllif yazısının səbəbini və janrını başlıqdan əvvələ çəkib: "Bu il xalq yazıçısı Süleyman Rəhimlinin anadan olmasının 125 illiyi qeyd edilir. "Ədəbi portretlər" silsiləsindən". Göründüyü kimi, doğru olaraq müəllif çox dəyərli publisistik qeydlərini "Ədəbi portretlər silsiləsindn" rubrikası ilə təqdim edir. Həqiqətən S.Rüstəmxanlının bu yazısında Süleyman Rəhimovun - Süleyman Rəhimlinin möhtəşəm portreti yaradılıb. Hələ S.Rüstəmxanlının qeydlərinə keçməzdən əvvəl mən də S.Rəhimli haqqında illər boyu düşüncəmdə yer almış duyğularımı oxucularla bölüşmək istərdim. Əlbəttə, poliqrafiya işçisi, mətbəə rəhbəri kimi mən də S.Rəhimli ilə dəfələrlə görüşmüşəm. Onun özündən kiçiklərə (hər mənada) münasibətinin özü bi məktəb idi. Nə qədər qayğılı, hörmətli yanaşırdı. Hətta hər hansı bir məsələ haqqında münasibətini sürətlə başa düşməyənlərə də təkrar-təkrar fikrini izah edir, bununla da səbirdə, təmkində nəyə qadir olduğunu göstərirdi.

İndi S.Rüstəmxanlının qeydlərini oxuyarkən mən də S.Rəhimovu canlı olaraq gözlərimin önünə gətirdim.

Onu da deyim ki, doğru olaraq S.Rüstəmxanlı S.Rəhimov kimi tanınan sənətkarı S.Rəhimli kimi təqdim edir. Hətta onun abidə daşının üzərində də "Rəhimli" yazılıb. Buna da etiraz edənlər var. Düşünürəm ki, S.Rəhimov kimi milli ruhlu bir sənətkarın "Süleyman Rəhimli" adı ilə yeni nəslə tanıdılması daha doğrudur. Mən də bu qeydlərimdə elə Süleyman Rəhimli ad və soyadından istifadə edəcəyəm.

Əlbəttə, S.Rəhimli dövrünün nəhəng yazıçısıdır. Hətta mən deyərdim ki, dünya klassikləri ilə bir cərgədə dayanmaq gücündə olan dahi sənətkardır. O, bütövlükdə ana dili abidəsi idi. Bu məqamlara S.Rüstəmxanlı xüsusi həssaslıqla yanaşır və yazır: *"Məncə, Süleyman Rəhimli təkcə XX yüz il nəsrimizin deyil, ümumiyyətlə bütün Azərbaycan nəsrinin və ədəbiyyatımızın fenomeni və möcüzəsidir. İnkarçılığın, hətta öz dədəsini də bəyənməmək xəstəliyinin geniş yayıldığı bir zaman da bu sözləri ürəklə və tam səmimiyyətlə deyirəm. Süleyman Rəhimli möcüzəsinin nə demək olduğunu qələm əhli, həm də təcrübəli qələm sahibləri daha yaxşı başa düşərlər. Yalnız ədəbiyyata həsr olunmuş bütöv bir ömür yaşayandan sonra adam «Saçlı»nın, «Şamo»nun dəyərini və hansı böyük əməyin məhsulu olduğunu, bu yaradıcılıq qəhrəmanlığını təkrarlamağın və ya ona bənzəməyin mümkünsüzlüyünü başa düşür. Süleyman Rəhimli, öz sözlərilə desək, «necə deyərlər», insan kimi də, yazıçı kimi də nəhəngdi və ona qiyməti yalnız bu nəhənglik ölçülərilə vermək olar..."*. Beləliklə, S.Rüstəmxanlı S.Rəhimlinin təkcə istedadını yox, həm də onun hədsiz zəhmətə qatlaşmaq gücünü də idealizə edir. Özü də doğru olaraq. Burada da "Şamo" romanını yada salır.

Yaxşı yadımdadır, gənclikdə biz "Şamo" romanının ayrı-ayrı abzaslarını oxuyur, sözə bağlı həmyaşıdlarımız arasında mübahisələr edirdik. Bircə cümlədə belə sənətkar xətaya yol vermir, uzun cümlənin əvvəlində hansı cümlə ilə başlayırsa, sonunda da elə həmin məntiqlə tamamlayırdı.

S.Rüstəmxanlı S.Rəhimli yaradıcılığını möcüzə adlandırır. Doğru qənaətdir, S.Rəhimlinin istər "Saçrı" romanı, istər "Ana" abidəsi, "Ağbulaq dağlarında" əsəri, ya da məşhur "Mehman" povesti ədəbi düşüncəmizdə necə böyük hadisələr kimi yer almışdır. Sənətkar fikrinə davam edərək "Şamo" romanının bir növ tarixinə də ekslurs edir: *"Böyük Xalq yazıçısı ədəbiyyata «Şamo» adlı kiçik həcmli romanıyla gəlmiş, əsərin qazandığı şöhrət onu romanı daha da təkmilləşdirməyə sövq etmişdi və əslində beş cildlik «Şamo» epopeyasını bütün ömrü boyu yazmışdı. Ədəbiyyat tarixində və tənqiddə də daha çox onun bu nəhəng əsərindən söhbət gedir. amma Süleyman Rəhimli «Şamo»suz da böyük yazıçıdır. Hətta başqa romanları nəzərə alınmasa da, çoxsaylı hekayələri, folklordan və xalq həyatından alınmış povest, əfsanə və rəvayətləriylə də nəsrimizin klassiki, ağsaqqalı səviyyəsində dayanacaq. Bu barədə çox yazılıb və bundan sonra da yazılacaq. Bizim nəslin formalaşmasına bu gün hansı ölçüylə yanaşılırsa yanaşılsın, azərbaycan Sovet ədəbiyyatının poeziyada Səməd Vurğun, Mikayıl Müşfiq, Rəsul Rza, Süleyman Rüstəm, nəsrdə Yusif Vəzir Çəmənzəminli, Süleyman Rəhimli, Mir Cəlal, Mirzə İbrahimli, Əli Vəliyev kimi yaradıcılarından kənarda təsəvvür etmək mümkün deyil"*. Burada görkəmli ədəbiyyat xadimlərinin adları sadalanır. Bunların hər biri həqiqətən Azərbaycan ədəbiyyatının ədəbi düşüncəsinin zirvəsidir. Bəzən biz "sovet dövrü" adı ilə belə görkəmli sənətkarlarımızı az qala ittiham edirik. Amma onların yaradıcılığının mahiyyətinə varanda dilimiz üçün, ədəbiyyat tariximiz üçün necə böyük əvəzsiz xidmətlər göstərdiyini anlamaq heç də bizim üçün çətin olmur.

Əlbəttə, S.Rəhimlinin məşhur sənətkar olduğunu dövrdə S.Rüstəmxanlı çox gənc idi. Elə mənim özüm də o dövrdə hələ elmi axtarışlarımın, poliqrafiya sahəsindəki əməyimin çətinliklər dövrünü yaşayırdım. S.Rüstəmxanlı böyük səmimiyyətlə görkəmli sənətkarla arasındakı ünsiyyətə xüsusi yer ayırır. Hətta bu ünsiyyətin dərinləşməsində, dostluğa çevrilməsində aradakı yaş fərqinin maneə olmadığını da qeyd edir: *Süleyman Rəhimli ilə arada qırx beş illik yaş fərqimiz olsa da, möhkəm dostluğumuz vardı. Bu dostluq qəribə bir təsadüfdən başlanmışdı. O vaxtkı Azərbaycan Dövlət universitetinin dördüncü kursunda oxuyarkən həm də «Ədəbiyyat və incəsənət» qəzetində işə düzəlmişdim, şeirdən əlavə, ilk ədəbi-tənqidi yazılarım da çap olunurdu və məncə, pis də qarşılanmırdı. Bir gün qəzetin baş redaktoru, hörmətli xalq yazıçımız Hüseyn Abbaszadə məni otağına çağırıb balaca bir kitabça uzatdı. «Bu, rəhmətlik Şamonun şeir kitabıdır. Oxu, ürəyinə yatsa, haqqında sözünü deyərsən. İnanıram ki, yaxşı bir şey yazacaqsan». Hüseyn müəllim xahiş kimi desə də, söz yox ki, bu, bir tapşırıq idi. Məni işə götürəndən sonra baş redaktor ilk dəfəydi nəsə yazmağımla bağlı birbaşa özü müraciət edirdi, buna görə də müəyyən bir forma, ilişik nöqtəsi tapıb yazı yazacaqdım, ən azı Şamonun elmi fəaliyyəti və acı taleyi buna imkan verirdi. amma «ayrılıq» adlı bu balaca şeir kitabını oxuyandan sonra gördüm ki, «baş redaktorun sözündən keçməyib bir kitab haqqında ürəksiz, ruhuma yatmayan bir yazı yazdım» deyə vicdan qınağına tuş olmayacağam (xoşbəxtlikdən tam otuz beş ildir ki, həmin prinsipi qoruyub saxlaya bilmişəm). Şeirlər məni tutdu, onların gənclik təravətiylə fəlsəfi kədəri - müəllifin taleyi fonunda qəribə bir rəng alır, xüsusi bir ahəngdə səslənirdi. Bir də məni şeirin gücü sarsıtmışdı. alim kimi gedən Şamo, sağlığında bəlkə də xüsusi əhəmiyyət vermədiyi şeirləriylə qayıtmışdı. Bu hissiyyatla «Görüşdürən ayrılıq» adlı bir məqalə yazdım və şənbə günü qəzetdə çıxdı. növbəti həftə bazar ertəsi «Ədəbiyyat və incəsənət»in o vaxt Zevin (indiki Əziz Əliyev) küçəsi 4-də yerləşən redaksiyasında rəhmətlik Məmməd Əkbərlə bir otaqda oturub yazı yazırdım. Redaksiyada bir canlanma hiss eləsəm də, yazıdan ayrılmaq istəmirdim. Qapının arxasında, kündə oturduğuma görə qapı açılanda əyilib küncə baxmayan, məni görmürdü".* Mən mətndə fasilə yaratmamaq üçün geniş abzası olduğu kimi təqdim etdim. Çünki mətn bütövlüyü oxucuda aydın fikir yaratmağa xidmət edir.

Əlbəttə, S.Rüstəmxanlının yazısı xatirə ruhunda yazılıb. İstər-istəməz burada həmin dövrlə bağlı digər sənətkarların da adları çəkilir. Hüseyn Abbaszadənin, M.Əkbərin və başqalarının adlarının çəkilməsi də müəyyən yaddaş oyanışına səbəb olur.

Görkəmli Xalq yazıçımız Hüseyn Abbaszadənin adının xatırlanması da məndə maraqlı təəssüratlar oyatdı. Axı onunla da görüşlərimiz olub. O vaxt H.Abbaszadə "General" romanı ilə çox məşhurlaşmışdı.

Maraqlı təsvir üsulu, hadisələrin yada salınması, yazıçıların mübahisəsi dövrün ədəbi qaynarlığından xəbər verir. Bu, əlbəttə, mənim üçün də çox maraqlıdır. Mətbəədə kitabları çap olunan yazıçıların iş yerimizə gəlməsi, siqnal nüsxələrinə baxmaq istəkləri - bütün bunlar dövrün ab-havasını yaxşı yada salır.

**(Davamı 11-ci səhifədə)**

# BÖYÜKLƏRİN YAŞAYAN RUHU





***(Əvvəli 10-cu səhifədə)***

İndi S.Rüstəmxanlı da həmin günlərdən, özü demiş "hay-küylərdən" ən maraqlısını yada salır: *"Bir azdan səs-küy bizim otağa yaxınlaşdı, qapı açıldı və gur bir səs eşidildi: «Gəl, Hüseyn, gəl bizi tanış elə, görüm, kimdi Sabir Rüstəmxanlı». İçəri keçib pəncərə ağzında oturan Məmməd Əkbərlə görüşdü, geri çevriləndə məni gördü. Əvvəl sakitcə başdan-ayağa məni süzdü, sonra əli döşündə ləng addımlarla mənə doğru gəldi, mən də yazı masasının arxasından çıxdım, irəli yeriyib əl verdim.*

*- Sənsən?*

*Əvəzimə Hüseyn müəllim cavab verdi. - Süleyman müəllim, bizim tənqid şöbəsində işləyir, təzə gəlib, çox istedadlı oğlandır...*

*Süleyman müəllim məni qucaqladı: - Məni hər yazı kövrəldə bilməz, amma sən kövrəltdin. necə deyərlər, ağlatdın məni. nə gözəl təhlil eləmisən Şamonun şeirlərini. Mən bu gün məxsusi sənə təşəkkür eləməyə gəlmişəm. Sənə də, Hüseynə də! Çox sağ olun!"* Bu qeydlərdə biz ayrı-ayrı müəlliflərin canlı obrazlarını görürük. Ən başlıcası, böyük sənətkarın çox gənc olan ədəbi işçiyə münasibətini və böyük səmimiyyətini görürük.

Mən elə indi də politqrafiya sahəsində çalışıram. Sənətkar kimi nə S.Rəhimlinin, nə H.Abbaszadənin, nə də S.Rüstəmxanlının yüzdə biri qədər yaradıcılığı olmayanların necə yurlə, göylə əlləşmələrini, iddialarını görmək məndə təəssüf doğurur. Belə müəlliflərlə işləmək, əlbəttə, çətindir. Amma yeri gəldikcə onlara böyük sənətkarlarda müşahidə etdiyim təmkinli, hörmətli münasibəti yada salıram, danışıram. Düşünürəm ki, insanların gələcəyini qurmaq üçün keçmişin unudulmaz dəyərləri çox qiymətli əyani vasitədir.

S.Rüstəmxanlı həmin məqamı bir növ psixoloji təhlillərlə aparır. Böyük sənətkarla qarşılaşması zamanı keçirdiyi hissləri də yada salır. Bununla da böyüklük və kiçiklik anlamının necə hörmət və ehtirama çevrilməsinə dair oxucuda qənaətlər yaradır: *"Nə deyəcəyimi bilmirdim. Məndən çox Hüseyn müəllim sevinirdi. Qəzet bu boyda oğul itkisi müqabilində balaca bir təsəlli verə bilibsə, baş redaktordan çox kim sevinəcəkdi?!*

*Hüseyn Abbaszadə öz otağına dəvət etsə də, Süleyman müəllim tələsmirdi. Stul çəkib oturdu.*

*- Mən də elə bildim, bu yazını yaşlı, çox təcrübəli bir adam yazıb, maşallah, bu, cavan oğlanmış ki!...*

*Sonra haranı qurtarmağımla maraqlandı, hələ oxuduğumu, universiteti gələn il bitirəcəyimi eşidəndə bir az da təəccübləndi...*

*- Məmməd Əkbər, papaq altında oğlanlar var e, bizim xəbərimiz yoxdur.*

*Ağsaqqal yazıçının bu bir cümləsi mənə bir kitablıq tərifdən artıq idi. Çay içdi, Şamonun elmi fəaliyyətindən danışdı, sanki onu mənə daha yaxşı tanıtmaq istəyirdi. Təxminən bir saatlıq, saat yarımlıq söhbətdən sonra durub gedəndə məni bir də qucaqladı:*

*- Şamonu allah tez apardı. amma elə sən də mənim oğlumsan. Şamo yoxdur, sən varsan. sənin kimilər var..."* Əlbəttə, S.Rəhimli taledən ağır zərbə almışdı. Oğlu Şamo istedadlı şair və həm də elə istedadlı alim idi. Seysmologiya üzrə tədqiqatları var idi. "Küskün" təxəllüsü ilə şeirlər yazırdı. S.Rüstəmxanlı gənc olsa da bir ədəbiyyat sevdalısı kimi Şamonu həssaslıqla ədəbi mühitə qaytaran yazısı ilə görkəmli sənətkarı sehrləmişdi. Bunun özü də yeni nəsil yazarlar üçün bir örnək hadisəsidir. S.Rüstəmxanlının bu qeydlərini oxuduqca onun cəmiyyətə, insanlara dərin insani münasibətini, humanizmini yaxşı başa düşür və yüksək qiymətləndirirəm. Yenə də qoy oxucular S.Rüstəmxanlının öz sözləri ilə həmin dövrü, həmin görüşü yaddaşlarında bir daha canlandırsınlar. Ən başlıcası, ədəbiyyat tariximizin sənət möcüzəsi kimi yaddaşlarda qalmış ədəbi qəhrəmanı bir daha xatırlasınlar.

S.Rüstəmxanlı yazır: *"Məqalənin böyük yazıçını bu qədər təsirləndirəcəyini, ürəkdən sevindirəcəyini gözləmirdim... O gedəndən sonra öz yazımı bir də, bu dəfə başqa gözlə oxudum... Süleyman müəllimlə yaranan o əlaqə ta dünyasını dəyişənə kimi davam elədi. İlk vaxtlar Hüseyn Abbaszadənin telefonuna zəng vurub, onun otağına çağırtdırırdı. Sonra öz telefonumu götürdü. 8-ci kilometrdə ev alandan sonra oranın da telefonunu yazmışdı. Bəzən axşamlar da zəng vurar, hal-əhval soruşar, çap olunan yazılarına münasibətimi öyrənər, rast gəldiyi yazılarım haqqında rəyini deyərdi. Qəzetdə görüşümüzdən az sonra Süleyman müəllim məni evinə dəvət etdi. Görünür, qəsdən günorta yeməyi zamanı. «Quzu ətindən yaxşı soyutmamız var, bir yerdə yeyəcəyik». Bütün cidd-cəhdimə baxmayaraq, məni öncə əl yuyulan yerə dartdı: «İşdən gəlmisən, əlini yu» (Bu baxımdan çox diqqətli idi, sofuluğu vardı). Yeməkdə də diqqətliydi. «Onu yox, bu tikəni götür. Bu dovğanı da içəcəksən!» Etiraz edəndə məşhur dovğa əhvalatını mənə danışdı. «Gecələr yazı yazanda sinəm yanır, çox dovğa içirəm, dovğanı yanıma vedrəylə qoyurlar». Süleyman müəllimin böyüklüyünə yaraşan və onu tamamlayan söhbətdi. Onun iş otağına baxa-baxa bu mənzilin məhz Səməd Vurğun küçəsində, onu «nəsrimizin böyük artilleriyası» adlandıran böyük dostunun adını daşıyan bir ünvanda yerləşməsinin də rəmzi xarakter daşıdığını fikirləşirdim. Binanın küncündə yerləşən, pəncərələri həm küçəyə, həm dənizə açılan iri otağın özündə də bir monumentallıq vardı. Bu pəhləvan cüssəli kişini başqa otaqda, başqa masanın arxasında təsəvvür eləmək çətin idi".*

Doğrusu, bu qeydləri oxuduqca S.Rüstəmxanlının diqqətcilliyinə, ədəbiyyat tariximizin böyük simalarına sonsuz məhəbbətinə qibtə etməyə bilmirsən. Düşünürsən ki, nə qədər bu gün söz sahibləri var cəmiyyətin yaddaşından fədakar insanlar heç vaxt silinə bilməzlər. Onları S.Rüstəmxanlı kimi canıyanan bir müəllif nə vaxtsa yenə yada salacaq.

S.Rüstəmxanlı S.Rəhimlini diqqətcil, şirin söhbətli obraz kimi xarakterizə edir. Doğrudur, elə bunun özü də zəngin insan təbiətindən xəbər verir. Cəmiyyətdə insanlar aqressiya ilə, hirs-hikkə ilə çox şeyə nail ola bilməzlər. Amma xoş münasibətlə, şirin dillə çoxları öz istəklərinə çata bilər. Əslində elə S.Rüstəmxanlı da cəmiyyətə məhz bu duyğulanmaları təlqin edir. Nəhayət yazısının sonunda fikirlərini ümumiləşdirir: *"Süleyman müəllim söhbətcil, duzlu, həm də diqqətcil adamdı. ata-anamın harda yaşamaları, vəziyyətləriylə maraqlanır, ayrı-ayrı yazıçılara, əsərlərə münasibətimi soruşur və qəribədir ki, dediyim rəylərlə demək olar ki, həmişə razılaşırdı.*

*Bir dəyə süfrəyə konyak qoydu: - Həkimlər icazə verməsə də, səninlə içəcəyəm.*

*- Mən işə gedəcəyəm, Süleyman müəllim!*

*- İşə gedəndə nə olar? Hüseyn sənə bir söz deyəcək bəyəm?*

*- Hər halda redaksiyadı.*

*- Narahat olma, Hüseyn xətrini çox istəyir...*

*Özü az içsə də, konyak şüşəsini qurtarmamış sakitləşmədi. «Çox oldu»» deyə etiraz eləyəndə güldü.*

*- Nəyi çox oldu? Sənin yaşında bundan ikisi mənim günorta normamdı.*

*- Siz onda «Ədəbiyyat və incəsənət» qəzetinin kiçik ədəbi işçisi deyildiniz, dağda raykom katibiydiniz.*

*- Necə deyərlər, elə sən də düz deyirsən.*

*Beş-altı belə epizodu çıxmaqla Süleyman müəllimlə ünsiyyətimiz daha çox yaradıcılıq üstəydi. Bakıdakı bütün görüşlərinə məni dəvət edərdi. Çıxanda tapşırıq verməyi də unutmazdı. «Qəzetdə məlumat verəcəksən yəqin. nə qədər geniş olsa, o qədər yaxşıdı. Öz imzannan ver!...»*

*Süleyman Rəhimli qeyri-adi iş qabiliyyəti olan, çalışmaqdan yorulmayan adamdı. Qəzetə yazılarını çox vaxt redaktorlara yox, mənə göndərirdi, mənim redaktəmlə, ixtisarımla razılaşırdı. Makinada yazılarını iri intervalla yazdırırdı, sonra sətirlərin arasını iri xəttiylə yenidən yazıb doldurardı.*

*- Mən yazılarımı makinadan sonra yenidən mürəkkəbdə çimizdirməsəm, rahat ola bilmərəm...*

*Bu gün iyirminci yüzil ədəbiyyatımızın böyük bir qismini sovet ideologiyasına bağlayıb inkar etmək meyli duyulur. Azərbaycanın Rusiya və Sovetlər Birliyi tərkibində yaşadığı tarixin faciələri çoxdur, hər halda, işğal altındaydıq... amma həmin işğaldan xilas olmağın ideoloji və mənəvi təməlini elə həmin rejimdə yaşayanların ədəbiyyatı yaratmışdı. ana dilimizin inkişafında həmin ədəbiyyat böyük rol oynamışdı. Həmin ədəbiyyat tariximizin təzadlı bir dövrünün əksidir və o dövrü də, o ədəbiyyatı da tarixdən silmək olmaz.*

*Bu baxımdan və söz sənəti faktı kimi Süleyman Rəhimli həmişə zirvələrimizdən biri olaraq qalacaq..."*

Yaxşıdır ki, zirvələr bir-birini danmır. Yeni zirvə özündən əvvəlki zirvəni təqdir edir. Biz bu yazıda müəllifin səmimiyyəti ilə mənəm mənəmliyə, lovğalığa qarşı etirazı görürük. Səmimi münasibət, yüksək humanizm insanların həyatını daha mənalı edir.

Sözümün sonunda bir daha görkəmli jurnalist-publisist Aydın Canıyevə təşəkkür edirəm. Əgər imkanım və vaxtım olsa, onun çox dəyərli yazısı haqqında da fikirlərimi qələmə almağa çalışacam.

***10.04.2025***